

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 27 (23.669)

*10 fevral 2021-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri xanım Vendi Mortonu qəbul edib. Prezident İlham Əliyev bu səfərin çox uğurlu olacağını, ölkələrimiz arasında güclü tərəfdaşlıq münasibətlərini və əməkdaşlığı davam etdirmək üçün gələcək planları əks etdirdiyini vurğulayıb.

Enerji sahəsində əməkdaşlıqdan danışan dövlətimizin başçısı böyük layihə olan Cənub Qaz Dəhlizinin tamamlanmasına çox şad olduğunu, "Əsrin müqaviləsi"nin vaxtının uzadılmasından sonra əməkdaşlığın bir çox onilliklər ərzində davam edəcəyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev region ölkələri, Avropa İttifaqı arasında çox nadir əməkdaşlıq formatını yaratdıqlarını və buna Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatlarının hökumətləri tərəfindən güclü dəstək göstərildiyini deyib. Qeyd olunub ki, diqqət yetiriləcək əsas sahə Azərbaycanın qeyri-enerji sektorunun inkişafı olacaq.

Böyük Britaniyanın dövlət naziri Vendi Morton əmin olduğunu bildirib ki, gələcəkdə bu əməkdaşlıq daha da genişlənəcəkdir.

Görüşdə postmünaqişə vəziyyəti, işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" konsepsiyasının tətbiqi, vətəndaş cəmiyyətinin inkişafı, gender bərabərliyi, energetika, o cümlədən bərpa olunan enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.



## Naxçıvan Muxtar Respublikasının yaranmasının 97-ci ildönümü qeyd olunub





Fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 97-ci ildönümü qeyd olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bu gün Naxçıvan Muxtar Respublikasının yaradılmasından 97 il ötür. Naxçıvanın qədim və zəngin dövlətçilik tarixi vardır. 5-7 minillik şəhərsalma mədəniyyətinə malik olan Naxçıvanda yeddinci əsrdə müstəqil idarəçilik formalaşmış, onuncu əsrdə Naxçıvan Şahlığı feodal dövləti yaranmışdır. Naxçıvan şəhəri XII əsrdə Azərbaycan Atabəylər dövlətinin paytaxtı olmuş, bu torpaqda XVIII əsrdə Naxçıvan xanlığı, 1918-ci ildə Araz-Türk Respublikası fəaliyyət göstərmişdir. Naxçıvana muxtariyyət statusunun verilməsi isə çoxəsrlik dövlətçilik tariximizdə mühüm mərhələ təşkil edir. 1920-ci ildə Azərbaycanın Zəngəzur mahalı Ermənistana verildikdən sonra ölkənin əsas ərazisindən təcrid olunan Naxçıvanın muxtariyyət məsələsi zərurətə çevrilmişdi. Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, qardaş Türkiyə hökumətinin tutduğu ədalətli mövqe nəticəsində 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən beynəlxalq Moskva və Qars müqavilələri imzalanmışdır. Bu müqavilələrin imzalanmasından 3 il sonra – 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradılmışdır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir"***.

Ali Məclisin Sədri demişdir: Ötən dövrdə Naxçıvanın muxtariyyət tarixi geniş tədqiq olunmuş, yubileyləri qeyd edilmiş, muxtariyyətin hüquqi və siyasi bazası formalaşmış, Naxçıvan böyük inkişaf yolu keçmişdir. Təbii ki, muxtar respublikanın inkişafı və muxtariyyətinin qorunması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Əgər 1924-1969-cu illərin Naxçıvanı ağır siyasi, sosial-iqtisadi və mədəni problemlər dövrü kimi səciyyələnirsə, 1969-1987-ci illərdə ümummilli liderimizin qayğısı ilə Naxçıvan Muxtar Respublikası qabaqcıl sənaye, kənd təsərrüfatı, elm və mədəniyyət mərkəzinə çevrilmişdir. 1990-1993-cü illərdə xalqımızın böyük oğlunun Naxçıvanda siyasi fəaliyyət göstərməsi



muxtar respublikanı işğaldan, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən qorumuş, həmin dövrdə Naxçıvanda bütövlükdə Azərbaycanın xilasına hesablanmış tarixi qərarlar qəbul edilmişdir. ***"Naxçıvan Muxtar Respublikasının muxtariyyət, dövlətçilik statusu daimidir, əbədidir"***, – deyən ulu öndər ölkəmizə ikinci rəhbərliyi dövründə də Naxçıvanın inkişafını və muxtariyyətinin möhkəmləndirilməsini diqqətdə saxlamışdır. Dahi şəxsiyyətin quruculuq xəttinin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Naxçıvan Muxtar Respublikasında dinamik inkişafı təmin etmiş, enerji, informasiya, ərzaq və müdafiə təhlükəsizliyi təmin olunmuşdur. Bu gün Naxçıvan Muxtar Respublikası milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı kimi ölkəmizin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Ötən dövrdə muxtar respublikada 166 ümumtəhsil məktəbi, 374 mədəniyyət müəssisəsi, 202 səhiyyə müəssisəsi, 55 idman obyekti, 288 hərbi obyekt tikilərək istifadəyə verilmiş, 98 mindən artıq yeni iş yeri açılmışdır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında 1995-ci illə müqayisədə ümumi daxili məhsul istehsalı 66, onun hər bir nəfərə düşən həcmi 48, əhali gəlirləri 61, sənaye məhsulu 114, informasiya və rabitə xidmətləri 132, nəqliyyat sektorunda yük daşınması 26, kənd təsərrüfatının ümumi məhsulu 14, xarici ticarət dövriyyəsi isə 27 dəfə artmışdır. Bu dövrdə yaşıllıqların sahəsi genişlənərək ümumi ərazinin 20 faizinə çatmış, kənd təsərrüfatına yararlı torpaqların sahəsi artaraq 177 min hektardan artıq olmuşdur. Hazırda muxtar respublikada 350 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir, ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi 88 faiz təşkil edir. Naxçıvan Muxtar Respublikasında inkişafın nəticəsi olaraq yaşayış məntəqələri böyümüş, şəhər, qəsəbə və kəndlərin sayı artmışdır. Hazırda muxtar respublikada 217 səhiyyə, 492 mədəniyyət, 442 sənaye müəssisəsi fəaliyyət göstərir, 34 mindən artıq hüquqi və fiziki şəxs sahibkarlıqla məşğul olur. Naxçıvanda inkişafı xarakterizə edən ən mühüm amillərdən biri enerji təhlükəsizliyinin təmin olunmasıdır. Bu gün muxtar respublikanın elə bir yaşayış məntəqəsi yoxdur ki, ora təbii qaz verilməsin. Muxtar respublikada 10 elektrik stansiyası vardır ki, onun da 8-i alternativ və bərpa olunan enerji mənbələri hesabına fəaliyyət göstərir. Muxtar respublikada su və kanalizasiya sistemlərinin müasir tələblər səviyyəsində qurulması istiqamətində ardıcıl tədbirlər görülmüş, Naxçıvan şəhərində, rayon mərkəzlərində və ətraf kəndlərdə müasir içməli su və kanalizasiya sistemləri qurulmuş, əhali 24 saat dayanıqlı və keyfiyyətli içməli su ilə təmin edilmişdir. Əhalinin həyat şəraiti, məskunlaşması və rifahı da yaxşılaşmış, muxtariyyətin əvvəlindən bu günə muxtar respublika əhalisi 5 dəfə artaraq 462 min nəfərə çatmışdır. Artan iqtisadi imkanlar muxtar respublikada elmin, təhsilin və mədəniyyətin inkişafına da öz təsirini göstərmişdir. Bu gün muxtar respublikada 3 ali, 4 orta ixtisas təhsili müəssisəsi, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, 212 ümumtəhsil məktəbi, Heydər Əliyev adına Hərbi Lisey, 5 peşə məktəbi, 36 məktəbdənkənar, 22 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Görülən tədbirlər nəticəsində təhsilin səviyyəsi

*Ardı 2-ci səhifədə*

artmışdır. Əgər 1995-ci ildə orta məktəbi bitirən məzunlardan 11 faizi və ya 401 nəfəri tələbə adını qazanmışdırsa, 2020-ci ildə bu göstərici müvafiq olaraq 67 faiz və ya 1955 nəfər təşkil etmişdir.

"Naxçıvanın tarixi, etnoqrafiyası, mədəniyyəti və təbii sərvətləri ciddi tədqiqat predmetinə çevrilmiş, minlərlə kitab nəşr olunmuş, Naxçıvanşünaslıq zənginləşdirilmiş, abidələrimiz bərpa edilmiş, milli dəyərlərimizin qorunub yaşadılmasına diqqət artırılmışdır", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, artıq Naxçıvanın Azərbaycan dövlətçilik tarixindəki rolu, nail olduğu müasir inkişaf elmi tədqiqatların və araşdırmaların mövzusudur. 97 illik muxtariyyət tarixinin, təbii ki, ən mühüm nailiyyəti Naxçıvanın ərazisinin qorunub saxlanmasıdır. Muxtariyyət statusu çoxşaxəli inkişafla yanaşı, həm də Naxçıvanda böyük müdafiə potensialının formalaşdırılmasına əsas vermişdir. Bir sözlə, Naxçıvan Muxtar Respublikası bütün sahələrdə uğurlu yol keçmişdir. Bunun nəticəsini təkcə rəqəmlərdə yox, eyni zamanda real həyatda, insanların rahat yaşayışında, sabitlikdə, yüksək rifahda, yaşayış məntəqələrimizin dəyişən simasında, tikilən infrastruktur obyektlərində, insanların firavanlığının, həyat şəraitinin yaxşılaşmasında, ordu quruculuğunda görürük. Aparılan quruculuq işlərinə, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafına öz töhfələrini verənlərin əməyi isə dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, onlar dövlət mükafatları və fəxri adlarla təltif olunur.

Ali Məclisin Sədri bu tarixi gündə şəhidlərimizin xatirəsini yad etmiş, Naxçıvanda sabitliyin və sərhədlərin qorunmasında, inkişafın təmin edilməsində əməyi olanlara təşəkkürünü bildirmiş, təltif olunanları və mükafat alanları, onların timsalında bütün muxtar respublika əhalisini təbrik etmiş, çıxışını ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***"Bu gün Naxçıvan, sözün əsl mənasında, inamla, uğurla inkişaf edir... Bu uğurların təməlində ulu öndərin siyasəti dayanır. Biz, onun davamçıları bu siyasətə sadiqik".***

Sonra Naxçıvan Dövlət Televiziyasının Naxçıvan Muxtar Respublikasının yaranmasının 97 illiyi münasibətilə hazırladığı filmə baxış olmuşdur.

Tədbirdə Naxçıvan Muxtar Respublika mükafatlarının, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası təltiflərinin təqdimatı olmuşdur. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 8 fevral tarixli Sərəncamı ilə 2021-ci il üçün elm sahəsi üzrə Mətanət Məmmədovaya "Naxçıvan blokadası" ikicildliyi, mədəniyyət sahəsi üzrə isə Nizami Alıyevə "Gəmiqaya qayaüstü rəsmləri" kitabına görə Naxçıvan Muxtar Respublika mükafatları verilmişdir.

Ali Məclisin Sədri muxtar respublika mükafatlarını təqdim etmişdir.

Naxçıvan Muxtar Respublika mükafatının qalibi Mətanət Məmmədova minnətdarlıq edərək demişdir: "1990-cı illərin əvvəllərində muxtar diyarımız mənfur qonşularımız tərəfindən blokadaya salınmış, böyük çətinliklərlə üzləşmiş, işğal təhlükəsi qarşısında qalmışdı. Həmin dövrdə ümummilli liderimiz Naxçıvana gəlməsəydi, Naxçıvan da işğal olunacaqdı. Ulu öndərin muxtar respublikada layiqli davamçısı, Ali Məclisin Sədri seçilən Vasif Talıbov həmin illərdə gənc yaşda olmasına baxmayaraq qaranlığa qərq olmuş



Naxçıvanda işıq yandırdı. Qədim Naxçıvanı böyük çətinliklə, zəhmətlə çıraq işığından işıqlı günlərə çıxardı. 70 il sovetlər dövründə əl dəyməyən resurslara doğru gedildikcə Naxçıvan nura qərq oldu, çıraq işığından elektrik enerjisi ixracatçısına çevrildi, illərlə əkilməyən torpaq sahələrinə yeni həyat bəxş olundu, ərzaq təhlükəsizliyi təmin edildi. Bu illərdə Naxçıvan böyük inkişaf yolu keçmişdir. Bütün sahələr kimi, mətbuat sahəsinə də bu inkişafdan pay düşmüşdür. "Naxçıvan blokadası" ikicildliyi Naxçıvanın dünəni və bu gününün müqayisəsi fonunda ərsəyə gəlmişdir. Kitabda blokada Naxçıvanının əvvəlki və sonrakı illərində muxtar diyarın ümumi mənzərəsi gənclərin Naxçıvan tarixini öyrənmələri üçün mənbə rolunu oynayır". Müəllif bundan sonra da Naxçıvan tarixi ilə bağlı kitabların yazılmasına səy göstərəcəyini bildirmişdir.

Naxçıvan Muxtar Respublika mükafatının qalibi Nizami Alıyev demişdir: "Muxtar respublikada bütün sahələr kimi, mədəniyyət sahəsi də uzun illərdir ki, dövlət qayğısı ilə əhatə olunur. Milli dəyərlərin qorunması, tarixi abidələrin bərpası, ənənələrin yaşadılması, mədəniyyətimizlə bağlı çoxcildli kitabların nəşri muxtar respublikada bu sahəyə göstərilən diqqətin əyani ifadəsidir. Mənə göstərilən etimada görə minnətdarlığımı bildirir, bundan sonra da mədəniyyətin inkişafı naminə əlimdən gələni əsirgəməyəcəyimə söz verirəm".

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 23 iyun, 1 iyul, 22 iyul və 2021-ci il 23 yanvar tarixli sərəncamları ilə Azərbaycan Respublikasında səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs "Şöhrət" ordeni, "Tərəqqi", "Dövlət qulluğunda fərqlənməyə görə", "Vətən uğrunda", "İgidliyə görə" medalları və Azərbaycan Respublikasının "Əməkdar jurnalisti" fəxri adı ilə təltif olunmuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 sentyabr, 5 oktyabr və 2021-ci il 8 fevral tarixli sərəncamları ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs Naxçıvan Muxtar Respublikasının "Əməkdar dövlət qulluqçusu", Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi", Naxçıvan Muxtar Respublikasının "Əməkdar hüquqşünası", Naxçıvan Muxtar Respublikasının "Əməkdar həkimi", Naxçıvan Muxtar Respublikasının "Əməkdar tibb işçisi", Naxçıvan Muxtar Respublikasının "Əməkdar kənd təsərrüfatı işçisi", Naxçıvan Muxtar Respublikasının "Əməkdar artisti" fəxri adları və "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuşlar.

Ali Məclisin Sədri orden, medal və fəxri adların döş nişanlarını və vəsiqələrini təltif olunanlara təqdim etmişdir.

"Şöhrət" ordenli İsmayıl Hacıyev demişdir ki, muxtar respublikada elmin inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaranması və ötən dövrdə keçdiyi inkişaf yolu bu qayğının bəhrəsidir. 97 illik muxtariyyət tarixinin müstəqillik dövründə bütün sahələrdə inkişaf, tərəqqi və sabitlik təmin edilib. Muxtar respublikanın yubileyləri yüksək səviyyədə qeyd olunub, muxtariyyətimiz daha da möhkəmləndirilib. İsmayıl Hacıyev əməyinə verilən yüksək qiymətə görə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin kollektivi və elm adamları adından minnətdarlıq etmişdir.

Təltif olunanlardan Rauf Əliyev əməyinə verilən yüksək qiymətə görə ölkə Prezidentinə və Ali Məclisin Sədrinə minnətdarlıq etmiş və bunu çalışdığı kollektivin fəaliyyətinə göstərilən qayğı kimi dəyərləndirmişdir. Qeyd olunmuşdur ki, ulu öndərimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi bütün sahələrdə olduğu kimi, mətbuat sahəsinin də inkişafını təmin edib. Azərbaycan Dövlət İnformasiya Agentliyinin Naxçıvan bürosu fəaliyyətini Naxçıvanda həyata keçirilən tədbirlərin ölkə miqyasında və dünyada yayılması sahəsində qurmuşdur. Qazanılan uğurlar və bu işdə əməyi olanların dövlətimizin yüksək mükafatlarına layiq görülməsi məsuliyyəti daha da artırır.

"Tərəqqi" medalı ilə təltif olunan Səməd Canbaxşıyev minnətdarlıq edərək demişdir: "Muxtar respublikanın hər yaşdan olan nümayəndəsi kimi, mən də respublika rəhbərinin qayğısını dəfələrlə öz üzərimdə hiss etmişəm. Bu əlamətdar gündə zəhmətimə verilən qiymət məni ikiqat sevindirdi. Bundan sonra da çalışacağam ki, göstərilən etimadı layiqincə doğruldum".

Azərbaycan Respublikasının "Əməkdar jurnalisti" fəxri adı ilə təltif olunan Elnarə Heydərova minnətdarlıq edərək demişdir: "Mən 25 ildir ki, Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor vəzifəsində çalışıram. Televiziyada bu günədək olan dəyişikliklər gözümün önündə baş verib. Azərbaycan mətbuatının 145 illik yubileyində hər ikisi televiziya əməkdaşı olan gənc ailənin mənzillə təmin olunması muxtar respublikada jurnalistlərə göstərilən qayğının bariz nümunəsidir. Naxçıvan mətbuatında elə bir jurnalist yoxdur ki, diqqətdən kənarda qalsın.

Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi" fəxri adı ilə təltif olunmuş Gülmirə Əsgərova minnətdarlıq edərək demişdir: "Belə bir gündə ümummilli liderimiz Heydər Əliyevin müəllim əməyini qiymətləndirərək dediyi ***"Mən yer üzündə müəllimdən yüksək ad tanımıram"*** fikirlərini xatırlayaraq muxtar respublikada təhsilin inkişafına və müəllim əməyinə xüsusi diqqət yetirildiyini vurğulamaq istəyirəm. Biz elə düşünürdük ki, ancaq müəllimlər öyrədir. Lakin bu gün biz də Ali Məclisin Sədrindən öyrənirik. İndi Naxçıvan şəhəri ilə yanaşı, ən ucqar dağ kəndlərində də lazımi şəraiti olan məktəb binalarının tikilib istifadəyə verilməsi gələcəyimizə göstərilən qayğıdır. Müasir tədris avadanlıqları ilə təmin olunmuş məktəblər müəllimlərin fəaliyyəti üçün geniş imkanlar açır. Onların əməyinin qiymətləndirilməsini də yaradılan şəraitin və təhsilə göstərilən qayğının bəhrəsi kimi dəyərləndiririk. Bu etimadın müqabilində daha səylə çalışacaq, ölkəmiz və xalqımız üçün savadlı və vətənpərvər gənclər yetişdirəcəyik".

Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi" fəxri adı ilə təltif olunmuş İradə Zeynalova demişdir: "Çalışdığım Heydər Əliyev adına Hərbi Liseydə Ali Məclis Sədrinin qayğısı ilə yüksək biliyə malik və vətənpərvər gənc nəsil yetişir. Vətən müharibəsində məktəbin məzunları ərazi bütövlüyümüzün bərpası uğrunda böyük şücaət göstərmişlər. Bundan sonra da vətənpərvər gənc nəslin yetişdirilməsi üçün üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gələcəyik".

Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi" fəxri adı ilə təltif olunmuş Tərlan Nəcəfova demişdir: "Naxçıvan muxtariyyətinin 97-ci baharını yaşayır. Ötən əsrin 80-ci illərinin tələbəsi və Naxçıvan blokadasının ilk illərinin acılarını görən insan kimi deyə bilərəm ki, Naxçıvanın dünəni və bu günü hər kəsin gözü önündədir. Çox qürur duyuram ki, inkişaf etmiş Naxçıvanda gələcək nəslin təhsilli və dünyagörüşlü yetişdirilməsi üçün çalışıram".

Naxçıvan Muxtar Respublikasının "Əməkdar kənd təsərrüfatı işçisi" fəxri adı ilə təltif olunmuş Mehparə Hüseynova çıxış edərək demişdir: "Muxtar respublikada kənd təsərrüfatı sahəsində fəaliyyət göstərmək üçün geniş imkanlar yaradılıb. Torpaq mülkiyyətçiləri, fermerlər qayğı ilə əhatə olunub. Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində ailə təsərrüfatları inkişaf etdirilir. Zəhmət adamlarının əməyinin qiymətləndirilməsi bizi daha da ruhlandırır. Söz veririk ki, bundan sonra da doğma diyarımızın inkişafına töhfəmizi verəcəyik".

Naxçıvan Muxtar Respublikasının "Əməkdar həkimi" Məhərrəm Tarverdiyev demişdir ki, muxtar respublikada bütün sahələr qayğı ilə əhatə olunub. Müasir səhiyyə sistemi yaradılıb. İnsanların sağlamlığı qorunur. Eyni zamanda sağlam nəsil yetişdirilir. Üç övladım Naxçıvandakı təhsil şəraitindən bəhrələnərək 500-dən yuxarı bal toplayıb ali məktəblərə qəbul olub. Ali Məclis Sədri tərəfindən hər biri mükafatlandırılıb. Bu gün isə mənim əməyimə yüksək qiymət verilir. Bütün bunlara görə minnətdarlıq edirəm.

Digər təltif olunanlar da əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıq etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtariyyətin yaradılmasının 97-ci ildönümünə həsr olunmuş tədbir keçirilib



***Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində fevralın 9-da Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının 97-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Daimi nümayəndəliyin kollektivi əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib. Tədbirdə çıxış edən daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov bildirib ki, Naxçıvanın muxtariyyəti böyük tarixi, hərbi-siyasi və diplomatik mübarizələrin nəticəsi kimi meydana çıxmış, gərgin, ağır, eyni zamanda şərəfli bir yol keçmişdir. Çıxışda 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən beynəlxalq Moskva və Qars müqavilələrindən, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 8 fevral tarixdə Naxçıvanda Qars müqaviləsinin 100 illiyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncamın əhəmiyyətindən bəhs olunub.

Qeyd edilib ki, ötən əsrin 90-cı illərində – bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı bir dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasına, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasına, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanmasına imkan yaratmışdır. 1990-cı il noyabrın 17-də ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə keçən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin birinci sessiyasında mühüm tarixi qərarlar qəbul olunmuş, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikasının muxtar dövlət olması bir daha təsdiqlənmişdir.

Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə Naxçıvan Muxtar Respublikasının 80, 85 və 90, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən Tədbirlər Planına əsasən muxtar respublikanın 95 illik yubileyləri qeyd olunmuşdur. Ölkə Prezidentinin Naxçıvan Muxtar Respublikasına tarixi səfərləri, Naxçıvan Muxtar Respublikasının yaradılmasının yubileylərində proqram xarakterli çıxışlar, muxtar respublikada son illərdə görülən işlər, həyata keçirilən quruculuq tədbirləri ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir.

Milli Məclisin deputatı Səttar Möhbalıyev Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusunun tarixi əhəmiyyəti və ulu öndər Heydər Əliyevin bu statusun möhkəmləndirilməsindəki xidmətlərindən danışıb.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Naxçıvan Muxtar Respublikasının inkişaf modelindən, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş müasir müstəqillik tariximizin ərsəyə gətirdiyi elmi əsərlərdən bəhs edib.

Tədbirdə Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor Anar İsgəndərov, yazıçı-jurnalist Röya Bənənyarlı da çıxış ediblər.

Sonda Naxçıvan Muxtar Respublikasının 97-ci ildönümünə həsr olunmuş kitab sərgisi ilə tanışlıq olub.

**AZƏRTAC**



# Dahi şəxsiyyətin arzularındakı Naxçıvan

## Doğma yurdum, doğma diyarım!

*Mənim doğma yurdum, doğma diyarım!*
*Gəzdim, səfər etdim Vətənimi mən,*
*Səntək gözəl diyar görə bilmədim.*
*Mən sənin havana, sənin suyuna*
*Heç bir tay-bərabər tapa bilmədim.*
*O doğma qoynunda boy atmışam mən,*
*Nuhun yurdunda nur saçan Vətən.*
*Bəlkə də, bundandır gedəndə səndən*
*Sənin həsrətinə dözə bilmirəm…*

Naxçıvan bəşər sivilizasiyasının ilkin mədəniyyət ocaqlarından biri sayılır. Bu gün hər sahədə yüksək inkişaf yoluna qədəm qoyan doğma yurdum yaranmasının 97-ci ildönümünü böyük ruh yüksəkliyi və gələcəyə inamla qeyd edir. Naxçıvanın muxtariyyətinin qorunması çox çətin və mürəkkəb mübarizənin, diplomatik səylərin nəticəsində mümkün olub. 1918-1920-ci illər Naxçıvan diyarı üçün çətin inkişaf dövrü olub. Bu diyarın tarixi taleyini, yəni onun Azərbaycan SSR-in tərkibində muxtar respublika kimi qalmaq imkanlarını Moskva və Qars müqavilələri reallaşdırıb. Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında 1921-ci il martın 16-da imzalanan Moskva müqaviləsində təsbit edildi. 1921-ci il oktyabrın 13-də RSFSR-in iştirakı ilə Azərbaycan SSR, Ermənistan SSR və Türkiyə arasında imzalanan Qars müqaviləsinə əsasən Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi. Bu müqavilələrlə Rusiya, Türkiyə, Gürcüstan, Ermənistan və Azərbaycan Naxçıvanı Azərbaycanın tərkibində muxtar qurum kimi tanıyıb və ona beynəlxalq hüquqi təminat veriblər. 1924-cü il yanvarın 8-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi (MİK) Naxçıvan vilayətinin Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adlandırılmasını təsdiq etdi və Naxçıvan MSSR MİK-in 1924-cü il yanvarın 18-də keçirilmiş birinci plenumu bu qərarı təsdiqlədi. Azərbaycan SSR MİK-in 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan muxtar diyarı Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrildi. Muxtar respublika statusu bu bölgənin sonrakı taleyində çox mühüm rol oynayıb. Bu cəhəti nəzərə alan görkəmli dövlət və siyasi xadim, ümummilli liderimiz Heydər Əliyev 1998-ci il yanvarın 14-də Azərbaycan Respublikası Konstitusiya komissiyasının iclasında deyib: ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanı əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq".***

### *Dahi şəxsiyyətin arzularındakı Naxçıvan*

Ulu öndər həmişə Naxçıvanın inkişaf etməsini, abadlaşmasını istəyirdi. Dahi şəxsiyyət deyirdi: ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin".***

Siyasi kursun davamçısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ümummilli liderimizin müəyyən etdiyi quruculuq xəttinin ölkəmizin hər bir yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasını da inkişaf və tərəqqi yoluna çıxardığını xüsusi qeyd edərək deyir: ***"Biz ümummilli liderin yolu ilə gedərək doğma diyarımızı onun görmək istədiyi kimi qurmağa, inkişaf etdirməyə çalışmışıq".***

Bəli, bu missiyanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov şərəflə, ləyaqətlə davam etdirir. Bunu doğma yurdun, nəinki mərkəzində, hətta ən ucqar dağ kəndlərində belə, hiss etmək mümkündür. Doğma diyarıma hər dəfə səfər etdiyimdə daim hansısa yeniliklərlə qarşılaşıram. Və bu məni çox sevindirir. Uzun müddət blokada şəraitində yaşamasına baxmayaraq, uğurlu dövlət siyasəti nəticəsində Naxçıvan hərtərəfli və dayanıqlı inkişafa nail olub və bu proses indi də davam etməkdədir.

### *Prezident cənab İlham Əliyev: "Naxçıvanın uğurlu inkişafı məni xüsusilə sevindirir"*

Bu gün dahi rəhbərin yolunu uğurla davam etdirənlər həm də görkəmli şəxsiyyətin arzularını inamla gerçəkləşdirirlər. Naxçıvanda həyata keçirilən möhtəşəm quruculuq işləri dövlət başçımız cənab İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilir: ***"Çox şadam ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır. Son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçib. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanıb. Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var".***





### *Günü-gündən gözəlləşən, abadlaşan doğma diyar*

Muxtar respublikanın inkişafını təmin etmək məqsədilə icrası uğurla başa çatan Dövlət proqramları və hazırda icrası davam etdirilən layihələr yüksək templə həyata keçirilir. Tarixin heç bir dövründə muxtar respublikada bu miqyasda abadlıq-quruculuq işləri görülməyib. Ötən illər ərzində muxtar respublikada tikinti-quruculuq işləri geniş vüsət alıb, nəhəng istehsal müəssisələri, çoxsaylı yaşayış binaları, səhiyyə, mədəniyyət, təhsil obyektləri tikilib istifadəyə verilib.

Tikinti-quruculuq işləri aparılarkən müasirliklə milliliyin vəhdəti əsas götürülüb. Bütün bunların nəticəsidir ki, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə aparılan geniş tikinti-quruculuq, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi yaşayış məntəqələrinin simasını tamamilə dəyişib, gözəlləşdirib. Bəli, muxtar respublika iqtisadiyyatının inkişafı istiqamətində aparılan məqsədyönlü siyasət hər il məhsul istehsalının və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə gətirib çıxarıb. Müasir dövrdə iqtisadi, sosial və mədəni sahələrdəki nailiyyətləri ilə diqqəti özünə cəlb edən qədim diyar rəqabətqabiliyyətli iqtisadi inkişaf modeli qurmaq yolunda mühüm irəliləyişlər əldə edib. Ulu öndərin Naxçıvanla bağlı düşüncələri, müəyyənləşdirdiyi inkişaf strategiyası bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, qazanılan uğurların miqyası və əhatə dairəsi genişləndirilir. Ölkə rəhbərinin imzaladığı müvafiq fərmanlarla müəyyən edilən sosial-iqtisadi inkişafın əsas istiqamətləri üzrə həyata keçirilən tədbirlər əldə edilən nailiyyətləri daha da möhkəmləndirir. Bu gün, sözün əsl mənasında, bütün sahələrdə sürətlə inkişafa və yüksəlişə nail olan Naxçıvanın bu uğurlu siyasət modelindən düşünürəm ki, ölkəmizin digər şəhər və rayonlarında da istifadə etmək lazımdır.

### *Pandemiya idarəedilən epidemiya kimi müşahidə olunur*

Pandemiyanın tüğyan etdiyi, Vətən müharibəsi apardığımız 2020-ci ildə dünyanın əksər ölkələrində iqtisadi geriləmələr olsa da, Naxçıvanda ÜDM-in istehsalı 2019-cu illə müqayisədə 1,1 faiz artaraq 2 milyard 908 milyon manata yaxın olub. Onun bir nəfərə düşən həcmi 6 min 310 manat təşkil edib ki, bu da 2019-cu ildəki göstəricidən 1,8 faiz çoxdur. Ümumi daxili məhsulun 59 faizdən çoxu istehsalın payına düşüb. Ötən il sahibkarlara 30 milyon 909 min manat kredit verilib, 119 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb. Bu uğurlu siyasətin nəticəsi hər bir sahədə olduğu kimi, günümüzdə dünyanı ağuşuna alan COVID-19 pandemiyası ilə mübarizədə də özünü doğrultdu.

Ölkə üzrə açıqlanan 2 fevral 2021-ci il tarixinə olan ən son COVID-19-a yoluxma statistikasına əsasən ən yüksək yoluxma hallarının 52,2 faizi paytaxtın payına düşür. Bundan başqa, həmin göstərici aran rayonlarında 13,3, Abşeron rayonunda 12,9, Gəncə-Qazax bölgəsində 8,2, Şəki-Zaqatalada 3,2, Quba-Xaçmazda 3,0, Lənkəranda 2,9, Dağlıq Şirvanda 2,5, Yuxarı Qarabağda 1,4, Naxçıvan Muxtar Respublikasında 0,04 faiz təşkil edir. Ölkə xaricindən idxalolunma halı 0,4 faizdir.

Bəli, statistikadan da aydın göründüyü kimi, günümüzün bəlasına çevrilən bu virus muxtar respublikada idarəedilən xəstəlik kimi müşahidə olunur.

Qədim diyarın nümunəvi xüsusiyyətləri hər zaman diqqətimi cəld edir. Bu gün Naxçıvanın özünəməxsus model formalaşdıran və ən çətin anlarda ən düzgün yol seçməyi də məhz uğurlu siyasətin tərkib hissəsidir.

### *Qədim diyar qəhrəmanlar diyarı kimi adını tarixin qızıl səhifələrinə həkk etdi*

Prezident cənab İlham Əliyevin xüsusi sərəncamı ilə yaradılan və maddi-texniki təchizatı gündən-günə gücləndən Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu bu gün, sözün əsl mənasında, düşmənə gözdağıdır.

Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli siyasəti və Azərbaycan Ordusunun keçirdiyi uğurlu əməliyyatlar nəticəsində 30 illik həsrətimiz Zəfərlə yekunlaşdı. Bu uğurda çoxsaylı şəhid verən qədim diyar qəhrəmanlar diyarı kimi də adını tarixin qızıl səhifələrinə həkk etdi. Məhz belə mübariz Vətən oğullarının hesabına yüzlərlə hektar Vətən torpağı düşmən işğalından azad edildi. Cənnətməkanlarımız yenidən yararlı hala gətirilərək bölgə əhalisinin rifahına xidmət edəcək. Bəli, bu gün Naxçıvan Muxtar Respublikası çiçəklənmə dövrünü yaşayır. Naxçıvan əhalisi gələcəyə böyük inamla baxır və bugünkü nailiyyətləri gələcək müvəffəqiyyətlərin təminatı kimi görür. Qazanılan nəticələr bir daha onu deməyə əsas verir ki, muxtar respublikada ulu öndər Heydər Əliyevin siyasi xətti uğurla, sədaqətlə, inamla davam etdirilir. Bugünkü Naxçıvan məhz dahi şəxsiyyətin arzularındakı Naxçıvandır. Gündən-günə çiçəklənən, inkişaf edən, abadlaşan, dosta qürur, fəxarət bəxş edən, düşmənə gözdağı olan Naxçıvan. Bunu reallaşdıranlar isə ümummilli lider Heydər Əliyevin nurlu yoluna, dövlətçilik ideyalarına sədaqətli olan, xalqa, doğma Vətənə xidməti həyat idealına çevirən vətənpərvər, fədakar naxçıvanlılardır.

**Röya BƏNƏNYARLI**
***Azərbaycan Televiziyasının əməkdaşı***
***gününsesi.info***
***8 fevral 2021-ci il***

# İnteraktiv dərs keçilib

***AMEA Naxçıvan Bölməsində muxtar respublika məktəbliləri üçün "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda interaktiv dərs keçilib.***

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 97-ci ildönümünə həsr olunan dərsdə bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərli Naxçıvanın muxtariyyət statusunun çox mürəkkəb bir şəraitdə, xalqın görkəmli şəxsiyyətlərinin, xüsusilə Naxçıvan əhalisinin inadlı müqaviməti nəticəsində əldə olunduğunu diqqətə çatdırıb, muxtariyyətin qazanılması ərəfəsində mövcud olan ağır ictimai və siyasi vəziyyət haqqında şagirdlərə məlumat verib. Dərsdə mənfur ermənilər tərəfindən Bakıda, Naxçıvanda və ölkənin digər bölgələrində törədilən dəhşətli qırğınlardan, Azərbaycanın əzəli və əbədi torpaqlarına qarşı irəli sürülən ərazi iddialarından bəhs olunub.

Məktəblilərə muxtariyyət statusunun verilməsində, qorunub saxlanılmasında müstəsna əhəmiyyəti olan Moskva və Qars müqavilələrinin rolundan söhbət açan alim görkəmli dövlət xadimi Behbud ağa Şahtaxtinskinin Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ haqqında əsl həqiqətləri sovet rəhbərliyinə çatdırılmasında və muxtariyyətin əldə olunmasındakı xidmətlərindən danışıb.

Dərs zamanı muxtar respublikanın keçdiyi 97 illik inkişafa nəzər salınaraq qeyd edilib ki, ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra onun prinsipiallığı və uzaqgörənliyi sayəsində Naxçıvan ağır siyasi vəziyyətdən xilas olaraq inkişafa qədəm qoyub. Bu siyasətin layiqli davamçısı cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsindən sonra Naxçıvan öz inkişafının ən yüksək mərhələsinə daxil olub.

Professor vurğulayıb ki, muxtar respublikada sürətli inkişaf təmin edilmiş, Naxçıvan bu illər ərzində ölkəmizin ən qabaqcıl və inkişaf etmiş bölgələrindən birinə çevrilmişdir.

İnteraktiv dərs muxtar respublikanın 200-dən çox ümumtəhsil məktəbinin müəllim və şagirdləri tərəfindən izlənilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Muxtariyyət və müstəqillik dövrümüzü güclü iqtisadiyyatı ilə tarixləşdirən




***Möhkəm iqtisadiyyat hərtərəfli inkişaf üçün əsas şərt olduğuna görə müasir dünyada hər bir ölkədə bütün strateji sahələrdəki problemlərin həllinə də məhz iqtisadiyyatın gücləndirilməsi ilə nail olunur. Dünya güclü iqtisadiyyatla nəyə nail olunduğunu ötən ilin payızında 44 günlük Vətən müharibəsində müstəqil Azərbaycan Respublikasının timsalında bir daha gördü.***

Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da müasir iqtisadi inkişaf səviyyəsi ilə yeni bir mərhələyə qədəm qoymuşdur. Son dövrlərdə geostrateji mövqeyinə və iqtisadi potensialına görə bütün dünyanın marağında olan Naxçıvan muxtariyyət dövründə keçdiyi zəngin inkişaf yolu ilə də diqqəti cəlb edir .

Naxçıvan Muxtar Respublikası muxtariyyət dövründə ölkəmizin əsas hissəsindən aralı düşsə də, iqtisadi və mədəni həyatın bütün sahələrində əsl Azərbaycançılıq nümunəsi yaradıb. Naxçıvanın təbii ehtiyatlarından istifadə, sənaye, kənd təsərrüfatı, ticarət, əhali məşğulluğu, insanların həyat səviyyəsi kimi məsələlərin həllində həyata keçirilmiş məqsədyönlü tədbirlər bu strateji regionun əhəmiyyətini ortaya qoyub, onun cazibədarlığını daha da artırıb.

Naxçıvanın keçdiyi inkişaf yolu hamar olmamışdır. Keçmişdə baş vermiş kifayət qədər mürəkkəb proseslər zəminində region üçün irimiqyaslı layihələrin həyata keçirilməsi çox çətin idi. Belə ki, tarixən özünün təbii sərvətləri ilə tanınmış





Naxçıvanın iqtisadi inkişaf səviyyəsi Sovet hakimiyyətinin ilk illərində malik olduğu əsl potensialdan çox aşağı idi. Həmin dövrdə ucqarların inkişafı, əhali məşğulluğu, insanların rifahının yüksəldilməsi kimi məsələlərin həlli çox ləng aparılırdı. Nəticədə, Naxçıvanda 1965-ci ilədək cəmi 40 adda məhsul istehsalına nail olunmuş, sadəcə, mineral ehtiyatların hasilatı və yeyinti sənayesi mövcud olmuş, əsasən, aqrar sahəyə üstünlük verilmişdi. İndi 97 illik muxtariyyətin həmin dövrlərinə qısa nəzər saldıqda Naxçıvanın zəngin təbii iqlim və mineral ehtiyatlarından hansı məqsədlərlə istifadə edildiyi, güclü iqtisadiyyata sahiblənmək əvəzinə həmsərhəd olduğu qonşu respublikadan necə asılılığı açıq görünür.

Təkcə Naxçıvanın deyil, bütövlükdə, Azərbaycan Respublikasının tarixinə dönüş ili kimi yazılmış 1969-cu ildən sonrakı dövr, bu mənada, muxtar respublikanın da hərtərəfli inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Bu dövrdən başlayaraq xalqımızın böyük oğlu Heydər Əliyevin rəhbərliyi altında bütün respublika kimi, Naxçıvanın da dirçəlişi başladı. 1969-1987-ci illərdə gedən sürətli quruculuq prosesləri nəticəsində Naxçıvanda ilk dəfə olaraq yaradılmış iri istehsal və xidmət müəssisələri hesabına çox sayda yeni iş yerləri yaradıldı. Belə ki, 1985-ci ilədək Naxçıvanda müxtəlif sahələr üzrə 21 iri sənaye müəssisəsi yaradılmışdı. Bu dövrdə muxtar respublikada istehsal olunan məhsullar keçmiş ittifaqın müxtəlif yerlərinə göndərilir, geniş torpaq sahələri əkin dövriyyəsinə cəlb olunur, üzümçülük, bağçılıq istiqamətində mühüm işlər aparılırdı. Məhz bu dövrdə əldə olunmuş potensial sonrakı mərhələdə Naxçıvanın keçəcəyi möhtəşəm yolun əsasını qoydu.

Xalqımızın milli mübarizə tarixinə qızıl hərflərlə yazılmış 1990-1993-cü illərdə Naxçıvanın rolu, onun muxtariyyəti daha da əhəmiyyət qazandı. Bu dövr Naxçıvan tarixi naxçıvanlıların öz xilaskar rəhbərinin ətrafında yenidən daha sıx birləşməsi dövrü kimi xarakterizə edilir. Bu zaman hər tərəfdən blokadaya alınmış Naxçıvan Muxtar Respublikasının taleyi möcüzələrin ümidinə qalmışdı. Xarici aləmlə hər cür əlaqəsi kəsilmiş, enerji və ərzaq ehtiyatları məhdud bir regionun iqtisadiyyatının da çökməsi o dövrün acı reallığı idi. Ancaq yorulmaq bilmədən müstəqil Azərbaycanın gələcəyi üzərində düşünən dahi rəhbər Heydər Əliyev bu dövrdə artıq Naxçıvanda, doğma naxçıvanlıların yanında idi. Bu qədim diyarda hamının əl-ələ verib mübarizə aparmaq gücü isə yetərincə idi. Beləliklə, ulu öndərin rəhbərliyi ilə 1990-1993-cü illərdə Naxçıvanda qonşu dost ölkələrlə əlaqələrin yaradılması, ərzaq, enerji təminatı məsələlərinin həlli, ölkənin paytaxtı ilə hava yolu əlaqəsinin genişləndirilməsi, aqrar islahatlara başlanılması muxtar respublikanın etibarlı müdafiəsi qədər həyati əhəmiyyətli işlər oldu.

Naxçıvanın muxtariyyət tarixində mühüm yer tutan müstəqillik illəri ölkəmizdə makroiqtisadi sabitliyə nail olunması ilə bərabər başlanan və cəmiyyətin bütün sahələrini əhatə edən hərtərəfli inkişaf mərhələsidir. Bu dövrdə blokadanın ağır nəticələrinin aradan qaldırılması ilə paralel olaraq muxtar respublikada əhalinin həyat səviyyəsinin yüksəldilməsi prosesləri başlanıldı. Uzun böhran dövründə əli işdən soyumuş insanları yenidən motivasiya etmək böyük zəhmət tələb edirdi. Ancaq qısa müddətdə Naxçıvanın hər yerində, möhtəşəm quruculuq



dövrü başlandı. Bu təkcə zəruri infrastruktur, yaxud istehsal və enerji sahələrində deyil, həm də insanların düşüncəsinə, həyata baxışlarına qazandırılan quruculuq idi. Bu quruculuq naxçıvanlılarda sabaha inam, işə yeni münasibət, torpağa daha sıx bağlılıq və yaradılanları qoruyub saxlamaq vərdişləri də formalaşdırdı. Nəticədə, keçən illər ərzində Naxçıvanın hər yerində yeni layihələr həyata keçirildi, ünvanlar gözəlləşib abadlaşdı.

Naxçıvanı müasir inkişafa qovuşduran bu dövrün statistikası çox zəngindir. Belə ki, muxtar respublikanın inkişafını əks etdirən ümumi daxili məhsul istehsalı 1995-ci illə müqayisədə 66 dəfə artaraq 2 milyard 907 milyon 810 min manatı üstələdi. Hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalı 47 dəfə artaraq 6310 manatı ötdü. Bu dövrdə muxtar respublikada sənayenin inkişafı üçün əsaslı tədbirlər reallaşdırılaraq avtomobil istehsalına qədər yol keçildi, elektroenergetika sahəsində geniş nailiyyətlər əldə olundu, aqrar regiondan sənaye regionu olmaq yolunda mühüm irəliləyiş əldə olundu. Müstəqillik dövrümüzün ilk illərində tamamən idxaldan asılı vəziyyətdə olmuş muxtar respublikada sənaye məhsulu istehsalının genişlənməsi ixracın da həcminə müsbət təsir göstərmiş, ötən il 325 milyon 362 min ABŞ dollarından artıq həcmdə sənaye məhsulu ixracına nail olunub. Ümumilikdə isə ötən il Naxçıvandan ixrac edilən məhsulların ümumi dəyəri 428 milyon 520 min ABŞ dolları həcmində olub.

Hazırda muxtar respublika sənayesində özəl bölmənin payı 93,4 faiz təşkil edir. Yerli istehsal sahələrinin inkişafı nəticəsində 2020-ci ildə muxtar respublikada 384 növdə məhsul istehsal olunaraq 350 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilib. 2020-ci ilin məhsulu üçün muxtar respublikada 63 min 405 hektar sahədə əkin işləri aparılıb ki, bu da 1995-ci ilin məhsulu üçün əkilmiş sahədən, təxminən, 2,5 dəfə çoxdur.

Ötən dövrdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında əldə olunmuş bu nailiyyətlər regionda həyatın bütün sahələrində özünü göstərdi. Belə ki, təkcə ötən ildə muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 376 min 426 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib. Ümumilikdə isə 2020-ci ildə muxtar respublikada 323 müxtəlif təyinatlı obyekt tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur. 163 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilmişdir.

Hazırda muxtar respublika mədəni yüksəliş mərhələsini yaşayır. Elm, təhsil, səhiyyə, mədəniyyət və turizm kimi sahələrdə əldə olunan uğurlar Naxçıvanın simasını tamamilə dəyişdirmişdir. Xüsusən təhsil sahəsində əldə edilmiş uğurlar Naxçıvanda təhsilə olan diqqətin bariz təzahürü kimi hər yerdə yüksək dəyərləndirilir. Muxtar respublikanın hər bir yaşayış məntəqəsini əhatə edən müasir təhsil kompleksləri ilə yanaşı, xüsusi təmayüllü liseylər, məktəblərdə yaradılmış innovativ dərnəklər və STEAM tədris metodunun tətbiqi 30-50 il sonrakı dövr üçün müstəqil Azərbaycanın hərtərəfli yetişmiş vətəndaşlarını formalaşdırmaqda müstəsna əhəmiyyətli ideyalar, real işlərdir. Muxtar respublikada xüsusi istedadı olan məktəblilərin adının Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılması və onların Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülməsi gənclərin əhatə olduqları dövlət qayğısından xəbər verir. Ölkəmizdə ilk dəfə olaraq məhz Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında" 2020-ci il 14 dekabr tarixli Sərəncamı isə Naxçıvanda elmtutumlu iqtisadiyyatın formalaşmasına verəcəyi yüksək töhfə baxımından muxtar dövlətin mühüm uğurudur.

*İnkişaf zamanın tələbi, görülən məqsədyönlü işlərin, çəkilən gərgin zəhmətin nəticəsidir. Zaman keçdikcə Naxçıvanda görülən bütün işlər də öz bəhrəsini verdi. İndi muxtar respublikanın şöhrəti onun hüdudlarını, ölkə sərhədlərini çoxdan aşıb, XXI əsrin zirvəsinə doğru yüksələcək.*

**✍ Əli CABBAROV**

## Futbol Federasiyası ötən ilə uğurla yekun vurub

***Naxçıvan Muxtar Respublikasının Futbol Federasiyası ötən ilə uğurla yekun vurub.***

Federasiyanın sədr müavini Sakit Rzayevin ilin yekunları ilə bağlı keçirilən tədbirdə 2020-ci ildə görülən işlər barədə hesabatında da bildirilib ki, ötən il Şərur rayonunda Region Liqa Naxçıvan Zonasında oyun idarəçiliyi edən 15 hakimin iştirakı ilə təlim-məşq toplanışı keçirilib, futzal idman növünün inkişafı üçün də lazımi işlər görülüb. Belə ki, muxtar respublikada ilk dəfə Naxçıvan Futzal Liqasının yaradılması bölgənin idman həyatında yaddaqalan olub. İki komanda muxtar respublikamızı Azərbaycan kubokunda təmsil edib. Naxçıvan Futbol Federasiyasının rəsmi internet saytı *nff.az* istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri, Futbol Federasiyasının sədri Azad Cabbarov isə qeyd edib ki, hesabat dövrü ərzində federasiya tərəfindən idmanın bu növünü inkişaf etdirmək, kütləviliyə nail olmaq sahəsində bir sıra işlər görülüb. Bu istiqamətdə icra olunan ən əhəmiyyətli işlərdən biri də odur ki, Uzunoba gölünün ətrafında yerləşən meydançanın istifadəyə verilməsi ilə muxtar respublikamızda çimərlik futbolunun əsası qoyulub. 12 komandanın iştirakı ilə keçirilən çimərlik futbolu üzrə muxtar respublika çempionatı keçirilib. Naxçıvan Futbol Federasiyasının yaxın gələcəkdə istifadəyə veriləcək müasirtipli Təlim-Məşq Kompleksinin ərazisinə isə iki tribunadan ibarət süni örtüklü futbol stadionu, üstüörtülü və hasara alınmış mini-futbol meydançası, iki tribunalıq çimərlik futbolu stadionu və inzibati bina daxildir.

Federasiya idmançıların ölkə və beynəlxalq yarışlara hazırlıq səviyyəsini artırmağı, məşqçilərin peşəkarlıq səviyyəsini yüksəltmək məqsədilə tanınmış məşqçiləri muxtar respublikaya dəvət etməyi, onlar tərəfindən yerli məşqçilərə seminar və məşğələlərin keçirilməsini qarşıya məqsəd qoyub. Muxtar respublikada çempionat və turnirlərin keçirilməsinin təmin edilməsi bundan sonra da diqqətdə saxlanılacaq.

Bütün bunlar deməyə əsas verir ki, federasiya bundan sonra da qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində əzmlə çalışacaq, istedadlı idmançıların yetişdirilməsində səy və bacarığını əsirgəməyəcəkdir.

**✍ Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhəri, İslam Səfərli küçəsində Xəlil Kazım oğlu Ramazanova məxsus olan 9 nömrəli evin 525 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayon, Aşağı Yaycı kəndində yaşayan İsmayılov Nəriman Məmməd oğluna məxsus 102013000987 reyestr nömrəli plan ölçü və çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Kənan Qüdrət oğlu Cəfərovun adına olan AD 0026759 nömrəli hərbi vəsiqə və 126 seriya nömrəli 095 nömrəli hərbi hissəyə buraxılış vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ramiyyə Əkbərova
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1500. Sifariş № 124